

**Ramiz MÖVSÜM**

## DAHA SUSMAQ VAXTI DEYİL...

İllər boyu susduq, susduq...
Susa-susa, tək torpağı uduzmadıq,
Zamanı da biz uduzduq...
23 iyul 1993-cü il.
Ağdamı da işğal etdi ermənilər;
Atamızın son ünvanı
Qarağacı məzarlığı
yerlə-yeksan oldu o gün.
Mənfur düşmən meyitdən də qisas aldı,
Nə günahı var olünün?!
Vədəsində Bakımıza köç etmişdi anamız da,
Qarabağdan çox nigaran idi o da...
Yazıq anam 1995-in 25 iyununda getdi bada,
Səbəbi də bilinmədi ölümünün...
Od-ocaqsız yandım o gün,
Tüstüm çıxdı, düz təpəmdən!..
Bu itkiyə dözməz ürək,
Göz yaşlarım selə döndü...
Bu dünyadan mənim üzüm elə döndü,
olmayan tək.
Anam bizi qoyub getdi...
Can verəndə, tamam susdu...
Qəm çəkməsin kimsə deyə,
gülümsündü hər kəsə o.
Getdi gedər-gəlməzə o.

* * *

Sümürdülər yurdumuzun var-yoxunu ermənilər,
Bu torpaqdan qopmadılar o zəlilər, o gənələr.
Viran qaldı ellərimiz,
Minalandı çöllərimiz...
Döyüşlərdə axıdıldı al qanımız.
Bir milyonluq qaçqınımız səpələndi hər tərəfə..
Ermənilər taladılar yurdumuzu,
Danışığa gəlmədilər bircə dəfə.
Biz yenidən təşkil etdik Ordumuzu!..
7 noyabr 2020-ci il.
Ordumuzun sayəsində
Ermənistan üzərində zəfər çaldıq!
İtirilən torpaqları şəhidlərin canı,
qanı bahasına geri aldıq!..
Zirvələrdə dalğalandı
ölkəmizin üçrəngli bayraqları!..

* * *

Ermənilər vasil oldu cəhənnəmə...
Şükür olsun, açılıbdır yollarımız.
Neçə gündür Ağdamdayıq;
Hamı kimi sevincliyik!..
Bircə dənə nisgilimiz qalıb yalnız...
Gətirmişik anamızın nəşini də Qarabağa.
Əhdimizə sadiq qaldıq:
Atamızın yanındaca
Anamızı əmanət tək təhvil verdik biz torpağa...
Atam, anam qovuşdular bir-birinə,
Son qoyuldu ayrılığa!..
Anam düzü sağlığında iştahını küsdürməzdi heç bir vədə.
Nə yesəydi, ən axırda istəyilə qoyulardı
süfrəsinə tutma motal pendiriylə
isti təndir çörəyi də...
Elə bu gün mən anamın məzarına
pendir, çörək qoyam gərək,
Onun ruhu sevinəcək!..
Atam, anam varlığımdır!..
Məzarları zülmətimdir, darlığımdır...
Gidi dünya, daha dözə bilməyirəm
mən onların yoxluğuna...
İstəyirsən, məni suçla, ya da qına,
İnsanları ucdantutma
bu torpağın girdabına çəkirsən sən...
Dünya, toxum əvəzinə yerə insan əkirsən sən!..
Milyonlarla ömrü etdin talan, Dünya.
Verdiyini alan Dünya;
Yalan Dünya, yalan Dünya!..